**Azərbaycan Respublikasında ixtiraların, sənaye nümunələrinin və mal nişanlarının dövlət qeydiyyatına alınması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Keçmiş SSRİ-nin patent sisteminin dağılması və Azərbaycan Respublikasında Müstəqil Patent İdarəsinin olmaması üzündən respublikada edilən ixtiraların, yaradılan sənaye nümunələrinin və mal nişanlarının üstünlüyünü qorumaqla bağlı müəyyən çətinliklər meydana çıxır. Bu barədə təxirəsalınmaz və təsirli tədbirlər görülməsə, Azərbaycan Respublikasının intellektual mülkiyyətinin böyük hissəsinin itirilməsinə və respublikanın iqtisadiyyatına ciddi maddi ziyan vurulmasına gətirib çıxara bilər.

Keçid dövründə, yəni Azərbaycan Respublikasında patent sistemi yaradılana qədər ixtiraların, sənaye nümunələrinin və mal nişanları müəlliflərinin hüquqlarının müdafiəsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasında patent sistemi yaradılana qədər müvəqqəti olaraq, ixtiraların, sənaye nümunələrinin və mal nişanlarının dövlət qeydiyyatı xidməti (ilkin ekspertiza) açılsın.

2. Keçmiş SSRİ-nin patent xidmətləri mərkəzinin Bakı filialı Azərbaycan Respublikasının tabeliyinə keçirilsin və onun əsasınla 10 nəfərlik işçisi olan Bakı Patent Tədqiqatları Mərkəzi yaradılsın.

İxtiraların, sənaye nümunələrinin və mal nişanlarının dövlət qeydiyyatı (ilkin ekspertizası) müvəqqəti olaraq, Azərbaycan Respublikası Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin Azərbaycan elmi-texnnki informasiya elmi tədqiqat institutuna həvalə edilsin və bu işi aparmaq üçün respublikada patent idarəsi yaradılana qədər, Bakı Patent Tədqiqatları Mərkəzi onun tabeliyinə verilsin.

3. Maliyyə Nazirliyinə tapşırılsın ki, yaradılan xidmətin maliyyələşdirilməsini təmin etsin və patent fondunun komplektləşdirilməsinə lazımi vəsait ayırsın.

4. Azərbaycan elmi-texniki informasiya elmi-tədqiqat institutuna tapşırılsın ki, 10 gün müddətində Azərbaycan Respublikasında ixtiraların, sənaye nümunələrinin və mal nişanlarının dövlət qeydiyyatı haqqında müvəqqəti əsasnamə layihəsini hazırlayıb Nazirlər Kabinetinin təsdiqinə versin.

~~5. Azərbaycan Respublikasının nazirlikləri, baş idarələri, müəssisə və təşkilatları müvafiq qaydada patent müdafiəsini təmin etmədən və lisenziya müqavilələri bağlamadan ixtiraların və digər elmi-texniki fəaliyyət nəticələrinin xarici ölkələrə keçirilməsinə yol verməsinlər.~~[1]

6. Azərbaycan elmi-texniki informasiya elmi tədqiqat institutuna tapşırılsın ki, əlaqədar təşkilatlarla birlikdə və mütəxəssislərin cəlb olunması şərti ilə sənaye mülkiyyəti obyektlərinin müdafiəsi haqqında qanunvericilik aktları layihələrini hazırlayıb müvafiq qaydada Milli Məclisə göndərmək üçün 1992-ci il noyabrın 1-nə kimi Nazirlər Kabinetinə təqdim etsin.

**Azərbaycan Respublikasının Baş naziri R. HÜSEYNOV**
**İşlər müdiri F. MURADƏLİYEV**

Bakı şəhəri, 25 avqust 1992-ci il
№ 471

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 1 mart 2010-cu il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 255**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 1 mart 2010-cu il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 255**) ilə 5-ci bəndi çıxarılmışdır.